Müasir təlim texnologiyalarının tədris prosesinə inteqrasiyasının təmin edilməsi, interaktivlik və əlçatanlıq üçün milli onlayn **“Rəqəmsal məktəb”** təhsil platforması fəaliyyətə başlayıb. İlkin mərhələdə “Rəqəmsal məktəb” platforması Bakı şəhərində yerləşən ümumi təhsil müəssisələrində test rejimində tətbiq edilir. Sözügedən platforma təhsil sistemində müasir texnologiyaların tətbiqi ilə yanaşı tədris və idarəetmə proseslərini təkmilləşdirmək, həmçinin təhsildə şəffaflığı artırmaq məqsədi daşıyır.

Platformada **“Şagird”**, **“Valideyn”**, **“Müəllim”** və **“Məktəb rəhbəri”** üçün fərdi kabinetlər mövcuddur. Bu da hər bir istifadəçi qrupunun ehtiyaclarına uyğun fərdi funksionallıq təqdim edir. “Rəqəmsal məktəb” platformasından istifadə etmək üçün şagird, valideyn, müəllim və məktəb rəhbərləri istənilən cihazdan www.reqemsal.edu.az və yaxud www.digital.edu.az keçidi vasitəsilə fərdi kabinetlərinə giriş edə biləcəklər.

## Platformanın imkanları

### “Şagird” kabineti

**“Şagird”** fərdi kabinet platforması şagirdlərə təhsil prosesində daha səmərəli iştirak etmək imkanı yaradır. Bu kabinetdə hər bir şagird üçün aşağıdakı məlumat və resurslar təqdim edilir:

- **Günün dərsi**: şagirdlər hər gün üçün fənlər üzrə müəyyən olunmuş dərsləri və mövzularını, müvafiq tədris materiallarını öz fərdi kabinetlərindən izləyə bilərlər.
- **Gündəlik dərs cədvəli:** şagirdin gündəlik fəaliyyətləri ilə tanış olması üçün dərs cədvəli əlçatan olacaq.
- **Fənlər üzrə dərsliklər**: şagirdlər fərdi kabinet vasitəsilə bütün fənlərə aid dərsliklərə rəqəmsal şəkildə çıxış əldə edəcəklər.
- **Mövzular üzrə videodərslər:** mövzuların daha əhatəli və vizual şəkildə öyrənilməsi üçün videodərslər təqdim olunacaq.
- **Mövzuların izahı:** hər bir mövzunun dərinləşdirilmiş izahı ilə şagirdlər dərs materialını daha yaxşı mənimsəyə biləcəklər.

**Ev tapşırıqları və izahları:** təyin edilən ev tapşırıqları ilə yanaşı, həm də onların izahı şagirdlərin istifadəsinə veriləcək ki, bu da tədris prosesini asanlaşdıracaq.

**Testlər**: şagirdlərin biliklərinin yoxlanılması və mövzuları daha yaxşı mənimsəməsi üçün interaktiv testlər və digər qiymətləndirmə vasitələri mövcud olacaq.

"Rəqəmsal məktəb" platformasında ibtidai siniflər üzrə riyaziyyat, Azərbaycan dili və ingilis dili fənlərini əhatə edən 932 mövzu yer alır. 5-ci, 6-cı və 7-ci sinif şagirdlərinin təhsil ehtiyaclarını qarşılamaq üçün Azərbaycan dili, Azərbaycan tarixi, təbiət, coğrafiya, fizika və kimya fənləri olmaqla ümumilikdə 367 mövzu platformaya yerləşdirilib. Digər sinif və fənlər üzrə mövzuların əlavə edilməsi növbəti mərhələlər üçün nəzərdə tutulub.

## "Valideyn" kabineti

**"Valideyn"** kabineti vasitəsilə valideynlər övladlarının təhsil prosesini yaxından izləyə bilir və onlarla bağlı məlumatlara asan çıxış imkanı əldə edirlər:

**Nailiyyət və qiymətlərin izlənilməsi**: valideynlər övladlarının nailiyyətləri, gündəlik qiymətləri və ümumi nəticələr barədə məlumatlara real vaxt rejimində çıxış əldə edə bilərlər. Bu, şagirdin təhsil irəliləyişini effektiv şəkildə izləməyə və lazımi tədbirlər görməyə şərait yaradır.

**Birbaşa ünsiyyət imkanı:** platforma vasitəsilə valideynlər sinif rəhbərləri, fənn müəllimləri və məktəb rəhbərliyi ilə birbaşa əlaqə saxlaya bilərlər. Bu ünsiyyət kanalı tədris prosesində yarana biləcək sual və ya problemlərin operativ şəkildə həllinə yardım edir.

**Rəy və təkliflərin izlənilməsi:** valideynlər övladlarının tədris prosesi ilə bağlı fənn müəllimləri və sinif rəhbərləri tərəfindən verdiyi rəy və təklifləri görə bilərlər. Bu, şagirdin təhsildəki güclü və inkişaf etdirilməsi lazım olan tərəfləri ilə tanış olmaq üçün əhəmiyyətlidir.

**Nizam-intizam məlumatları:** şagirdlərin məktəbdəki davranışlarına dair ayrıca bölmə mövcuddur ki, bu bölmə vasitəsilə valideynlər övladlarının nizam-intizam qaydalarına riayət etməsi, məktəbdəki davranışları və

mümkün qayda pozuntuları barədə bildirişləri izləyə bilərlər.

**“Müəllim” kabineti**

“Rəqəmsal məktəb” platformasında **“Müəllim”** kabineti müəllimlərin gündəlik iş yükünü tənzimləməklə yanaşı, tədris prosesini nizamlı şəkildə həyata keçirmələrinə dəstək olur. Eyni zamanda müəllimlər üçün vacib məlumatlara çıxışı asanlaşdıraraq tədris prosesinin idarə olunmasının keyfiyyətini artırır.

**Elektron jurnal platformasına birbaşa çıxış** vasitəsilə hər müəllim üçün **e-jurnal sisteminə** çıxış təmin edilib.

- Müəllimlər özlərinin gündəlik, həftəlik və aylıq dərs cədvəllərini görə bilir. Bu funksionallıq vasitəsilə onlar dərs saatlarını, sinif otaqlarını və fənlər üzrə bölgünü rahat şəkildə izləmək imkanı əldə edirlər.
- Müəllimlər tədris apardığı siniflərə və qiymətləndirmə bölmələrinə keçid edə bilirlər. Bu, müəllimlərin dərs planlamasını və vaxt idarəsini daha effektiv həyata keçirməsinə şərait yaradır. Həmçinin bu imkan onlara şagirdlərin nəticələrini izləmək, qiymətləndirmə prosesini daha şəffaf və sistemli şəkildə aparmaq üçün əlverişli şərait yaradır.
- Elektron jurnal platformasının funksionallığını optimallaşdırmaq məqsədilə yaxın günlərdə e-jurnal mobil tətbiqi müəllimlərin istifadəsinə veriləcək. Mobil tətbiqin istifadəyə verilməsi müəllimlərin iş yükünü azaltmaqla yanaşı, onların tədris fəaliyyətlərini çevik şəkildə həyata keçirməsinə kömək edəcək.

**Elanlar və xəbərlər:** Elm və Təhsil Nazirliyinin rəsmi elan və xəbərləri birbaşa “Müəllim” kabinetində yerləşdirilib. Bu, müəllimlərə təhsillə bağlı yeniliklər, mövcud qaydalar və müvafiq tədbirlər barədə operativ məlumat əldə etmək imkanı yaradır. Müəllimlər tədris prosesində baş verən dəyişikliklərdən, yeni metodik göstərişlərdən və peşəkar inkişafla bağlı təklif olunan proqramlardan vaxtında xəbərdar ola bilirlər.

**“Direktor” kabineti**

"Rəqəmsal məktəb" platformasında məktəb rəhbərləri üçün **"Direktor"** kabineti yaradılıb. Direktorlar platformanın təqdim etdiyi məlumatlar əsasında rəqəmsal tədrisin effektivliyini qiymətləndirmək və davamlı olaraq təkmilləşdirmək üçün təhlillər aparmaq imkanı əldə edirlər. Bu funksiyalar məktəb rəhbərlərinə məktəbin idarə edilməsini daha şəffaf, sistemli və effektiv şəkildə həyata keçirmək imkanı yaradır. Təhlillər və hesabatlar vasitəsilə məktəbin ümumi inkişaf strategiyalarının hazırlanması və tətbiqi mümkün olur.

- **Rəqəmsal tədrisin effektivliyinin təhlili və təkmilləşdirilməsi:** direktor kabineti vasitəsilə məktəb rəhbərləri öz müəssisələrində fəaliyyət göstərən pedaqoji heyət və təhsilalanlar haqqında məlumatları izləyə bilərlər. Bu məlumatlar tədris planı üzrə dərs saatlarının bölgüsü, fənlər və siniflər üzrə dərs cədvəlləri, dərnək və fakültətiv məşğələlərin siniflər üzrə idarəetmənin effektivliyini artırmaq məqsədilə sistemləşdirilmiş şəkildə təqdim olunur.

- **Dərs cədvəllərinin idarə edilməsi:** məktəb rəhbərləri platforma vasitəsilə məktəbin ümumi dərs cədvəlini, siniflər üzrə bölünmüş tədris planlarını və gündəlik dərs qrafiklərini izləyə bilərlər.

- **Şagirdlərin "Şəxsi iş" bölməsi:** platformada hər bir şagird üçün xüsusi "Şəxsi iş" bölməsi mövcuddur. Bu bölmədə şagirdlərin şəxsi məlumatları ilə yanaşı, qiymətləndirmə nəticələri və ümumi təlim nailiyyətləri əks olunur. Direktorlar bu məlumatları izləməklə, şagirdlərin inkişafını sistematik şəkildə təhlil edə bilərlər.

- **Qiymətləndirmə və imtahan nəticələri:** "Direktor kabineti"ndə siniflər üzrə keçirilmiş kiçik summativ qiymətləndirmə (KSQ), böyük summativ qiymətləndirmə (BSQ) və digər imtahan nəticələri əks olunur. Bu məlumatlar əsasında direktorlar fənlər və siniflər üzrə tədris keyfiyyətini təhlil edə və müəssisə səviyyəsində hesabatlar hazırlaya bilərlər.

**"Rəqəmsal məktəb"** platformasında inkişaf mərhələsi çərçivəsində bir sıra funksionallıqların artırılması nəzərdə tutulub. Belə ki, hər bir tədris müəssisəsi üzrə valideynlərin iştirakını artırmaq məqsədilə xüsusi **"Valideynlərin rəyləri"** funksiyası tətbiq ediləcək. Platformada hər tədris müəssisəsi üzrə valideynlər üçün xüsusi bölmə yaradılacaq ki, bu bölmədə valideynlər sorğularda iştirak edəcəklər. Sorğunun keçirilməsində məqsəd təhsil prosesində müəllimlərin fəaliyyətinə dair valideynlərin rəy və təkliflərini toplamaqdır. Sorğular, əsasən, müəllimin dərs izah etmə bacarığı, övladının dərsə marağını artırmaqda müəllimin rolu, verilən

tapşırıqların mütəmadi olaraq yoxlanılması, müəllimin şagirdlərlə ünsiyyət və davranış tərzi kimi məsələləri əhatə edəcək.

Platformadan istifadə ilə bağlı təlimat: https://www.youtube.com/watch?v=DkWzZ8tcpDk